№ 357

# 197 Süleyman Rəhimovun 100 illik yubileyinin keçirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci ildə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri - xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rəhimovun anadan olmasının 100 illiyi tamam olur. Azərbaycan nəsrinin, xüsusilə roman janrının inkişafında böyük xidmətləri olan Süleyman Rəhimov özündən sonra zəngin ədəbi irs qoyub getmişdir.



XX əsr Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamış Süleyman Rəhimovun 100 illik yubileyinin respublikada layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Süleyman Rəhimovun 100 illik yubileyi tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

| | |
|---|---|
| Elçin **Əfəndiyev** | - Azərbaycan Respublikası Baş nazirinin müavini |

**Təşkilat Komitəsinin üzvləri:**

| | |
|---|---|
| Rəfael **Allahverdiyev** | - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı |
| Fatma **Abdullazadə** | - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri |
| Fərəməz **Maqsudov** | - Azərbaycan Elmlər Akademiyasının prezidenti |
| Polad **Bülbüloğlu** | - Azərbaycan Respublikasının mədəniyyət naziri |
| Misir **Mərdanov** | - Azərbaycan Respublikasının təhsil naziri |
| Nizami **Xudiyev** | - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri |
| Oqtay **Mirqasımov** | - "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru |
| Anar **Rzayev** | - Azərbaycan Yazıçılar Birliyinin sədri |
| Bəxtiyar **Vahabzadə** | - xalq şairi |
| Nəbi **Xəzri** | - xalq şairi |
| İsa **Hüseynov** | - xalq yazıçısı |
| Hüseyn **Abbaszadə** | - xalq yazıçısı |
| Arif **Rəhimov** | - yazıçı |

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 11 mart 2000-ci il

№ 358

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S.1136-1137.